# Dini tolerantlıq baxımından ölkəmiz dünyaya örnəkdir

**Azərbaycan xalqı tarix boyu öz kökünə və milli-mənəvi mədəniyyətinə bağlı olduğundan qarşılıqlı əlaqə ruhuna malik olub. Qədim zamanlardan bu günə qədər ölkəmizdə müxtəlif mədəniyyətlərin nümayəndələri, fərqli dini inanclara mənsub insanlar yaşayıb. Azərbaycan fərqli dinlərin və mədəniyyətlərin qovşağında yerləşdiyi üçün bu məqam anlaşılandır. Fərqli inanclara, mədəniyyətlərə, tarixi köklərə malik insanların, müxtəlif etnosların və millətlərin nümayəndələrinin ölkəmizin ərazisində məskunlaşması, əsrlər boyu təhlükəsiz, əmin-amanlıq, dostluq şəraitində dinc və yanaşı yaşaması ölkəmizin tarixən tolerant ölkə olduğunu, multikultural dövlət olduğunu təsdiq etmiş olur.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi
Layihə çərçivəsində
Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin dəstəyilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti üzrə layihə çərçivəsində hazırlanıb.

Tolerantlıq hər hansı fərdə və ya qrupa məxsus yanaşmaların, inancların, fikirlərin və mövqelərin digər fərd və ya qrup tərəfindən qəbul edilməsidir.

"Tolerant" termini ilk dəfə XV əsrdə yuxarı dairələrdən icazə almaq mənasında işlədilib. Antik dövrdə tolerantlığın ilkin elementləri özünü göstərib. Bunlar işğaldan sonra əsarət altına alınmış hər hansı xalqın nümayəndələrinin azadlığa buraxılması və vətənlərinə qayıtmağa icazə verilməsi, işğal olunmuş ərazilərdə yaşayan xalqların öz tanrılarına ibadət etməyə imkan yaradılması və digər elementlər olub. Mənbələrdə qeyd olunur ki, orta əsrlərdə xüsusi qruplara münasibətdə tolerantlığın daha təkmil forması özünü göstərib. Bu baxımdan "tolerantia" adlandırılan Latın konsepti "orta əsrlərin yüksək inkişaf etmiş siyasi və hüquqi konsepti" kimi önəmli nəzəriyyə hesab olunurdu. Lakin bir müddət sonra ilahiyyatçılar fərqli dinlərə məxsus fikirlərin dilə gətirilməsinə icazə verilməsi məsələsini irəli sürdülər. Tolerantlığın dövlət tərəfindən tətbiq edilən siyasi kurs kimi dəyərləndirilməsi isə XVI əsrdən sonrakı dövrlərə təsadüf edir.

Qeyd edək ki, 1995-ci ilin noyabrında keçirilmiş UNESCO-nun Baş Konfransının 28-ci sessiyasında Tolerantlıq prinsiplərinə dair bəyannamə qəbul olunur. Bəyannamədə "dözümlülük, ilk növbədə, insan azadlıqları və universal hüquqların etirafı əsasında formalaşan fəal münasibətdir", həmçinin "dözümlülük, insan hüquqlarına dair beynəlxalq hüquq aktlarında müəyyən olunmuş normaları iddia edən, həqiqətin mütləqləşdirilməsindən və ehkamçılıqdan imtina edən bir anlayışdır" fikirləri qeyd olunub.

Tarixi mövqedən yanaşarıqsa, əvvəllər tolerantlıq anlayışının daha çox qarşılıqlı münasibətlərdə ehtiva olunduğunu görmüş olarıq. Bu gün isə xüsusi qanunlarla tənzimləndiyi, müxtəlif təşkilatlar və qurumlar tərəfindən qəbul olunan sənədlərdə vacib müddəa kimi öz əksini tapdığı görünməkdədir.

Birgəyaşayışın, dini dözümlülüyün, sülhün qarantı olan multikultarilizm Azərbaycanda qədim köklərə malikdir. Tarixən azərbaycanlıların həyat tərzinin mərkəzini multikulturalizm və tolerantlıq təşkil edib. Hazırda isə milli mənsubluğundan, dinindən, dilindən asılı olmayaraq, Azərbaycan Respublikasının hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilib. Tolerantlıq daha da möhkəmlənən, təkcə bütünlükdə cəmiyyətdə deyil, hər bir vətəndaşın şüurunda, mövqeyində, münasibətində və həyat tərzində ehtiva olunan önəmli bir dəyərə çevrilib və milli sərvət olaraq qəbul edilir. Milli dəyərlərimizlə həmahəng olan tolerantlıq bu gün digər xalq və millətlər, müxtəlif dövlətlər üçün nümunəyə çevrilib.

Bu gün Azərbaycanda dini zəmində münaqişələrin olmaması, insanların sərbəst olaraq öz əqidə formasını seçməsi, dini dözümlülük və tolerantlıq şəraitinin yaradılması, bu uğurların bir çox beynəlxalq təşkilatlar, dünyada nüfuzlu din xadimləri və böyük ölkələr tərəfindən etiraf olunması ümummilli lider Heydər Əliyevin dini sahədə müdrik siyasət yürütməsinin və həmin siyasətin bu gün davam etdirilməsinin nəticəsidir. Ulu Öndər "İslam sivilizasiyası Qafqazda" mövzusunda keçirilmiş Beynəlxalq simpoziumda demişdir: "Dünyada bir çox böyük dinlər mövcuddur. Hər dinin özünəməxsus yeri var. Biz azərbaycanlılar islam dini ilə fəxr edərək, eyni zamanda heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik".

Ümummilli lider Heydər Əliyev Azərbaycanda yaşayan xalqları ölkənin ən başlıca sərvəti adlandırırdı. Ulu Öndər tərəfindən əsası qoyulan bu siyasi kurs hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. "Azərbaycan əsrlər boyu dinlərarası münasibətlərin inkişafında öz rolunu oynamışdır. İctimai-siyasi quruluşundan asılı olmayaraq, bütün dövrlərdə Azərbaycanda dini və milli dözümlülük, tolerantlıq çox yüksək səviyyədə olub. Bu, Azərbaycan xalqının duyğularıdır, eyni zamanda, müstəqil Azərbaycan dövlətinin siyasətidir və Azərbaycanda fəaliyyət göstərən dini qurumların əməyinin praktiki nəticəsidir" - deyən Azərbaycan Prezidenti İlham Əliyevin bu fikirləri ölkəmizdə dərin köklərə malik olan tolerantlığın xalqımızın xarakterik cəhətlərindən biri olması, zərurətdən irəli gələn hər hansı konsepsiya deyil, bir həyat tərzi və mədəniyyət olmasını əks etdirir.



Prezident İlham Əliyev mütəmadi olaraq dini icmaların liderləri ilə görüşür, onların durumu və problemləri ilə maraqlanır. Hakimiyyətə gəldikdən sonra ölkə ərazisində mövcud olan dini ocaqların, məscidlərin, kilsə və sinaqoqların, ziyarətgahların əsaslı təmiri ilə bağlı göstərişlər, maddi-mənəvi yardımlar dövlət başçısının dini-mənəvi dəyərlərimizə qayğısının təzahürüdür.

Bu gün Azərbaycan bir sıra beynəlxalq tədbirlərə ev sahibliyi edir. Bu tədbirlərin əksəriyyətinin mövzusu tolerantlıqla, millətlərarası dostluqla bağlı olur. Dünyanın müxtəlif ölkələrindən paytaxtımıza gələn əcnəbi qonaqlar onlara göstərilən diqqəti məmnunluqla qeyd edirlər. Əlbəttə ki, Azərbaycanda bəşəri duyğuların vüsət tapmasında, insanların qardaşlıq, dostluq şəraitində çalışıb yaşamasında ulu öndər Heydər Əliyevin danılmaz xidmətləri var.

Dini tolerantlıq baxımından ölkəmiz dünyaya örnəkdir və bir çox digər sahələrdə olduğu kimi, bu istiqamətdə də nümunəvi ölkələr sırasındadır. Azərbaycan xalqı müxtəlifliyə qarşı hər zaman tolerant münasibət göstərib və qonaqpərvər ev sahibi simasında ölkəmizə gələn bütün digər xalqların nümayəndələrinə qucaq açıb. Bunu ölkəmizdə səfərdə olan nüfuzlu qonaqlar, siyasətçilər və din xadimləri də təsdiqləyirlər. Bununla bağlı Azərbaycanda yaşayan dini icmaların liderləri də xalqımızın öz təbii dini tolerantlığı ilə seçildiyini qeyd edir, bu dəyərin həm cəmiyyətin təbii xüsusiyyəti, həm də dövlətin siyasəti olmasını yüksək qiymətləndirirlər.

*Elnurə İSAXAN*